# MƏHLULLARIN MOLEKULYAR QURULUŞU VƏ MOLEKULLARARASI QARŞILIQLI TƏSİR

**T.Ə. Ağdamski**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Son vaxtlara qədər maye molekullarını qaz molekulları kimi xaotik paylanmış və tamamilə amorf fazadan ibarət olduğu qəbul edilmişdir. Lakin hal-hazırda bu təsəvvür düzgün hesab edilmir. Rentgen şüalarının və işığın mayelərdən səpilməsi sahəsində aparılan tədqiqatlar göstərir ki, mayelərdə kristallik quruluş əlamətləri vardır və bu cəhətdən onlar bərk kristallar ilə qazlar arasında aralıq vəziyyət tuturlar. Temperaturun artması nəticəsində mayelərin quruluşunun kristallara oxşarlığı azalır, qazlara oxşarlığı isə artır.

Rentgen şüalarının maddədə səpilmə intensivliyi həmin səpilmənin müşahidə olunma bucağından asılıdır. Qazlarda bu asılılıq düz xəttlə ifadə olunur.

Bərk kristallar rentgen şüalarının yalnız müəyyən istiqamətlərdə səpir, bu atomların kristal qəfəsinin düyün nöqtələrində yerləşməsi nəticəsində olub, kristalın molekulyar quruluşunun tam analizinə imkan verir. Rentgen şüalarının mayelərdə səpilməsinin öyrənilməsi onlarda molekulların yaxın düzülüşə malik olmasını göstərir. Hər bir molekulun ətrafında onu əhatə edən qonşu molekullar təqribən həmin maddənin kristalındakı kimi yerləşir. Lakin molekulların sonrakı ikinci təbəqəsində onların yerləşməsi kristaldakından xeyli fərqlənir və daha sonrakı təbəqələrdə isə müntəzəm düzülüşə oxşarlıq itir.

Rentgen şüalarının çoxatomlu molekulları olan mayelərdən səpilməsinin tədqiqi göstərir ki, nəinki molekulların nisbi yerləşməsi müəyyən dərəcədə müntəzəmdir, hətta onların qarşılıqlı düzülüşü də tam xaotik deyildir. Bu $CCl_4$ kimi simmetrik molekullar üçün də doğrudur. Suyun molekulu kimi qeyri-simmetrik polyar molekullar halında qonşu molekulların tam qanunauyğun qarşılıqlı düzülüşü müşahidə olunur və onlar arasında müvəqqəti hidrogen rabitəsi yaranır.

Yüksək temperaturlarda maye suda üstünlük təşkil edən “kristallik quruluş” buzun quruluşuna müvafiq olmayıb, daha sıx quruluşa uyğun gəlir. Suyun bu quruluşunun buzun quruluşundan fərqi silisium (IV)oksidin iki kristallik modifikasiyası olan kvars və tridimitin quruluşlarındakı fərq kimidir. Mayelərdə molekulların müntəzəm yerləşməsinin statistik xarakteri onlarda orta sıxlıqdan və nizamlı düzülüşdən müvəqqəti yerli kənara çıxmalara səbəb olur. Bəzi hallarda məhlullarda təmiz mayenin yerli quruluşları deyil, başqa iki növ quruluş müşahidə olunur. Məsələn, rentgen şüalarının səpilməsinin öyrənilməsi yolu ilə müəyyən edilmişdir ki, etil spirtində litium xlorid məhlulunun bircinsli molekulyar

quruluşu, duzun qatılığı artdıqca $LiCl{\cdot}C_2H_5OH$ bərk birləşmənin quruluşuna yaxınlaşır. Həmin hal litium xloridin propil və butil spirtlərindəki məhlulları üçün də müşahidə edilmişdir.

Molekullararası qarşılıqlı təsir elektrostatik təbiətli olub, qarşılıqlı təsirdə olan molekulların polyarlığından asılı olaraq enerji kəmiyyətinin müxtəlifliyinə görə xarakterizə olunur.

Polyar molekulları momenti sabit olan dipollar şəklində göstərmək olar ki, biri digərinə qarşı əks yüklənmiş sonluqları ilə orientasiya olunurlar.

Xarici elektrik sahəsinin təsiri ilə molekul polyarlaşır, yəni qonşu molekulların sahəsinin təsiri ilə onda dipol momenti yaranır. Əgər molekula polyar isə bu zaman onun dipol momenti artır. Əgər molekul qeyri-polyar olub, sonra o dipol momenti qazanarsa **induksiya effekti** adlanır.




**Şəkil. Molekullararası orientasion (a), induksion (b), dispersion (c) qarşılıqlı təsirin sxematik təsviri.**

Mayelərdə molekullar arasındakı qarşılıqlı təsiri başlıca olaraq Van-der-Vaals qarşılıqlı təsiridir.

Bu molekullararası cazibə təsirinin bir neçə növüdür ki, onlar elektrostatik qarşılıqlı təsirin xüsusi hallarıdır. Onlara aşağıdakılar daxildir:

**1.** Sabit dipollu molekullar arasındakı nizamlı düzülüş cazibəsi olan orientasiya effektidir.



Orientasiya effektinin potensial enerjisi aşağıdakı tənliklə ifadə olunur:

$$U_{or} = -\frac{2\mu_1^2 \cdot \mu_2^2}{3r^6} \cdot \frac{1}{KT}$$

Burada $\mu_1$- və $\mu_2$- molekulların dipol momentləri, $r$ - iki dipolun mərkəzləri arası məsafədir. $K$ - Bolsman sabiti, $T$ - mütləq temperaturdur.

**2.** Sabit dipollu molekullar ilə polyar molekulların təsiri nəticəsində dipol qazanmış molekullar arasındakı induksiya effektidir.

İnduksiya qarşılıqlı təsir enerjisi $U_{ind.}$ aşağıdakı tənliklə ifadə olunur:

$$U_{ind.} = -\frac{\alpha^2 h\nu}{r^6}$$

Burada $\alpha$ - polyarlıq, $h$ - Plank sabitidir.

**3.** Molekulların qarşılıqlı təsir nəticəsində biri-birində dipol yaratmış və dipol molekulları arasındakı dispersiya cazibəsi.

Dispersiya qarşılıqlı təsirinin enerjisi Londan tənliyi ilə ifadə olunur:

$$U_D = \frac{3}{4} \cdot \frac{\alpha^2 h\nu}{r^6}$$

Bu təsir effektlərindən yalnız dispersiya effekti nisbətən böyük qiymətə malikdir.

Tənliklərdən göründüyü kimi bütün təsir növlərində molekulların qarşılıqlı cazibə enerjisi molekulların arasındakı məsafənin altıncı dərəcəsi ilə tərs mütənasibdir. Bu qarşılıqlı təsirlər bəzi hallarda mayelərin molekullarının assosasiyasına səbəb olur.

**4.** Assosasiya olunmuş mayenin molekulları arasında qısa müddətli qeyri-sabit rabitə əmələ gəlir. Molekullardan birinin protonu ilə digər molekulun anionu və ya elektromənfi atomu arasındakı elektrostatik cazibə qüvvəsi hesabına yaranan hidrogen rabitəsidir.

Dövrü sistemdə ikinci dövrün element atomları flüor, oksigen, azot kiçik radiuslarına və elektrona hərisliyinə görə hidrogen atomundan elektronu çəkirlər, hidrogen atomu proton xassəyə malik olur. $H^+$ və ikinci atom flüor, oksigen, azotla rabitə yaranır.

$$XH \cdots X; \; X = O_2, F_2, N_2.$$

Mayelərdə molekulyar qarşılıqlı təsirin termodinamiki ölçüsü olaraq, mayenin daxili təzyiqi götürülür

$$\left(\frac{\partial U}{\partial V}\right)_P.$$

Məhlulda komponentlərin birinin molekulları arasındakı qarşılıqlı təsirdən başqa, müxtəlif komponentlərin molekulları arasında da qarşılıqlı təsir mövcuddur. Bu qarşılıqlı təsirlər kimyəvi reaksiyalar getmədikdə, təmiz mayelərdə olduğu kimi Van-der-Vaals qarşılıqlı təsirləridir. Müxtəlif cinsli molekullar arasındakı qarşılıqlı təsir, bircinsli molekullar arasındakı qarşılıqlı təsirə nisbətən başqa qanunauyğunluqlara tabe ola bilər. Bundan əlavə, müxtəlif cinsli molekullar davamlı və ya asan dissosasiya edənbirləşmələr əmələ gətirməyə səbəb olan kimyəvi qarşılıqlı təsirdə ola bilər. Misal olaraq müvafiq məhlullarda

$$H_2SO_4{\cdot}H_2O;\ H_2SO_4{\cdot}2H_2O;\ CoCl_2{\cdot}6H_2O;\ HgBr(C_2H_5N)_2$$

**5.** Molekulyar birləşmələrin mövcud olduğunu ehtimal etmək olar. Yəqin ki, belə birləşmələrə daxil olan komponentlərin molekulları arasındakı rabitənin xarakteri müxtəlif hallarda müxtəlif olur. Məsələn, trinitrobenzol naftilaminin [$C_6H_3(NO_2)_3{\cdot}C_{10}H_7NH_2$] kompleksində $NO_2$ qrupunun dipolu aminin aromatic nüvəsində induksiya yolu ilə dipol yaradır və bu iki dipol biri-birini cəzb edir.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Xəlilov Ş.B. Səth sularının çirklənməsi və ona qarşı mübarizə tədbirləri. Azərb. Res. kons. coğ. Bakı, 2000.
2.Müseyibov M.A. Azərbaycanın fiziki coğrafiyası. Bakı, 1998.
3. Sadıqov A.S., Xəlilov İ.B. Ekologiya və ətraf mühitin mühafizəsi. Bakı, 2004.
4. Məmmədov Q.Ş., Xəlilov M.Y. Azərbaycanın torpaq ehtiyatlarından səmərəli istifadənin sosial – iqtisadi və ekoloji əsasları. Bakı, 2007.

*Т.А. Агдамский*

**Молекулярное строение растворов и межмолекулярное взаимодействие**

**РЕЗЮМЕ**

Статья посвящена изучению молекулярное строение и межмолекулярное взаимодействие в растворах.

*T.A. Agdamski*

**The molecular structure of solutions and intermolecular interaction**

**SUMMARY**

The article is devoted to the study of the molecular structure and intermolecular interaction in solutions.

**Açar sözlər:** kristallik quruluş, elektrostatistik təsir, induksiya effekti, dispersiya cazibəsi.

**Ключевые слова:** кристаллическое строение, электростатическое взаимодействие, индукционный эффект, дисперсионное притяжение.

**Key words:** crystal structure, electrostatic interaction, induction effect, dispersion attraction.